## Azərbaycan Qızıl Aypara Cəmiyyətinin işini yaxşılaşdırmaq haqqında

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN QƏRARI

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Qızıl Aypara Cəmiyyətinin humanizm, mərhəmət və xeyriyyəçilik məramlı təşkilat kimi tənha adamlara, xəstələrə, qaçqınlara və məcburi köçkünlərə, müharibə, milli zəmində münaqişə, təbii fəlakətlər və bədbəxt hadisələr zamanı zərər. çəkənlərə, girov götürülən və əsir düşən adamlara tibbi, sosial, maddi yardım göstərməklə əhəmiyyətli fəaliyyətlə məşğul olmasını, beynəlxalq humanitar təşkilatlarla sıx əlaqədə işləməsini və fəaliyyətinin normativ tənzimlənməsinin təkmilləşdirilməsi zərurətini nəzərə alaraq **qərara alır:**

1. Azərbaycan Qızıl Aypara Cəmiyyəti Azərbaycan Respublikasının himayəsi altında fəaliyyət göstərir və bütün dövlət orqanları, vəzifəli şəxslər və vətəndaşlar onun fəaliyyətinə yardım və köməklik edirlər.
2. Azərbaycan Qızıl Aypara Cəmiyyəti Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara hərəkatının tərkib hissəsi kimi, onun fəaliyyəti sahəsində Azərbaycan Respublikasının ərazisində yeganə rəsmi təşkilat kimi tanınır.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bir ay müddətində:

Qızıl Aypara Cəmiyyətinin təkliflərini nəzərə alaraq, onun barəsində olan Azərbaycan Respublikası hökumətinin müvafiq aktlarını cəmiyyətin fəaliyyətini tənzimləyən “İctimai birliklər haqqında” Azərbaycan Respublikası Qanununa və bu qərara uyğunlaşdırsın;

Qızıl Aypara Cəmiyyətinin maliyyə vəziyyətini yaxşılaşdırmaq məqsədi ilə tədbirlər planı hazırlasın;

beynəlxalq xeyriyyə cəmiyyətlərinin və respublikaya humanitar yardım göstərən təşkilatların köməyindən səmərəli və məqsədyönlü istifadə etmək üçün Qızıl Aypara Cəmiyyətinin maddi-texniki bazasının yaradılmasına köməklik göstərsin.

4. Azərbaycan Respublikası Milli Məclisinin Büdcəyə nəzarət və İqtisadi siyasət daimi komissiyaları Azərbaycan Qızıl Aypara Cəmiyyətinə vergi güzəştlərinin verilməsi. haqqında təkliflər hazırlayıb Milli Məclisə təqdim etsinlər.
5. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu qərar haqqında Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasına məlumat versin.

**Azərbaycan Respublikası Ali Sovetinin sədri**
**R. QULİYEV.**

Bakı şəhəri, 25 noyabr 1994-cü il.
926.